DOI: https://doi.org/10.36719/3005-3137/7/247-256

**Fatma Qəniyeva**
Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi
https://orcid.org/ 0000-0003-0914-189X
fatime.qeniyeva@gmail.com

# Naxçıvan qonaqpərvərliyinin öyrənilməsində maddi mədəniyyət nümunələri mənbə kimi *(Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında)*

## Xülasə

Qonaqpərvərlik institutunu təşkil edən münasibətlər həm ictimai, həm sosial-iqtisadi xarakter daşıyır. Cəmiyyətin müasir inkişaf mərhələsində, ictimai proseslərin qloballaşması ilə yanaşı qonaqpərvərliyin icrasında da dəyişiklik baş verir. İnsan həyatının bütün sahələrinə kütləvi informasiya vasitələri, xüsusilə internet daxil olduqda, qonaqpərvərliyin ənənəvi normaları, dəyərləri transformasiyaya məruz qalır. Qonaqpərvərlik dövr etibarilə eyniliyə malikdir, lakin zaman məfhumu dəyərlərin itkisi kimi məsələlərin ortaya çıxmasını özündə ehtiva edən faktorların mövcudluğunu daha qabarıq şəkildə üzə çıxarır. Qonaqpərvərliyin icrası zamanı istifadə edilən maddi nümunələr xalqın əmək fəaliyyətinin, onun təsərrüfat məşğuliyyətinin xarakterini, bədii-estetik zövqünü, cəmiyyətin ictimai qrupları arasındakı fərqləri aydın şəkildə özündə əks etdirir. Bu səbəbdən Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda mühafizə olunan maddi nümunələr araşdırmanın predmetinin öyrənilməsində maddi baza kimi istifadə edilmişdir. Əsrlər boyu xalqın məişətində mühüm rol oynayan, tarixi kimliyin komponentləri olan maddi mədəniyyət nümunələri müxtəlif sənət nümayəndələrinin topladıqları təcrübə nəticəsində yeni-yeni xalq yaradıcılığı növlərinin yaranması və formalaşmasına təsir göstərmişdir. Xalqın, adət-ənənəsi, inam və etiqadları əsasında yaranan, insan ömrünün hər bir mərhələsini özünəməxsus tərzdə əks etdirən maddi mədəniyyət nümunələri, hər şeydən əvvəl, əcdadların həyatı ilə bağlı tarixi, mədəni informasiya ilə zəngindir. Məqalədə qonaqpərvərliyin sosial institut olaraq etnosun məişəti ilə sıx qarşılıqlı əlaqəsindən bəhs olunur. Bu mövqeyə əsaslanaraq qeyd etmək olar ki, hər bir etnosun qonaqpərvərlik dəyərləri onun məişəti ilə mütləq şəkildə bağlılıq təşkil edir. Təkcə insan zəhmətinin göstəricisi kimi deyil, həm də onun zəkasının məhsulu kimi formalaşan maddi mədəniyyət ona olan tələbatdan asılı olaraq insan həyatının təminatı üçün istehsalı zəruriləşdirir. Maddi istehsal ilə sıx bağlı olan mədəniyyət sahələrinin öyrənilməsi də bu mənada hər zaman aktuallıq kəsb etmişdir.

***Açar sözlər**: qonaqpərvərlik, maddi-mədəniyyət, adət-ənənə, sosial münasibətlər, cəmiyyət, muzey*

**Fatma Ganieva**
Scientific worker of the National Museum of History of Azerbaijan
https://orcid.org/ 0000-0003-0914-189X
fatime.qeniyeva@gmail.com

# Material and cultural samples as a source in the study of Nakhchivan Hospitality (based on the collection of the National Museum of History of Azerbaijan)

## Abstract

The relations that make up the institution of hospitality are both social and socio-economic in nature. At the present stage of society development, along with the globalisation of social processes, there is a process of transformation of the hospitality sphere. When the media and especially the Internet enter all spheres of human life, traditional norms, traditions, values of popular hospitality undergo a transformation. Hospitality has the same in terms of period, but the concept of time further accelerates the existence of factors that include the emergence of problems such as loss of values. Material samples used in the implementation of hospitality visually reflect the nature of people's labour activity, their economic activity, artistic and aesthetic taste, differences between social groups of society. For this reason, material samples from the Ethnographic Fund of the National Museum of History of Azerbaijan were used as a material base in the study of the subject of the research. Samples of material culture, which for centuries played an important role in the life of the people, are an integral part of historical identity, influenced the emergence and formation of new and new types of folk art as a result of the accumulated experience of representatives of various arts. Samples of material culture of the people, created on the basis of their traditions, beliefs and reflecting each stage of human life in a peculiar style, are rich, first of all, in historical and cultural information about the life of ancestors. The study considers the close relationship of hospitality as a social institution with the household of an ethnos. Based on this position, it can be noted that the hospitality values of each ethnos are necessarily connected with its household. Material culture, formed not only as an index of human labour but also as a product of human intelligence, requires production to sustain human life according to the demand for it. The study of areas of material culture closely related to material

production has also always been relevant in this sense.

***Keywords:*** *hospitality, material culture, traditions, social relations, society, museum*

## Giriş

Tarixi inkişaf prosesi göstərir ki, qonaqpərvərlik ilk olaraq fərdin cəmiyyətdə qonşuluq münasibətlərinin formalaşmasını həyata keçirir. Bununla yanaşı, iqlim, yaşayış məskənlərinin quruluşu, fərdiliyin, kollektivizmin üstünlüyü və s. bu kimi amillər arasındakı fərqlər, sosial təcrübələrin müxtəlifliyi bir çox xalqlarda qonaq qəbulunun özünəməxsus ənənələrini, unikal qonaqpərvərlik mədəniyyətini formalaşdırmağa imkan yaratmışdır.

Daha bir əhəmiyyətli məqam isə məhz adət-ənənələrin icrasının təfəkkürlə sıx bağlı olmasıdır. Əslində mədəniyyət, onun tərkib hissəsi olan adət-ənənələr və təfəkkürün bir-birilə qarşılıqlı əlaqədə mövcudluğu heç də yeni bir məsələ deyil. Bizim vurğuladığımız məsələ odur ki, qonaqpərvərlik adətinin sırf bir mədəniyyət hadisəsi kimi hansısa təfəkkürün nəticəsi olmaqdan daha çox, özünün bir təfəkkür tərzi olub, başqa mədəni hadisələr üçün yol açması, səbəb olmasıdır. Beləliklə, qonaqpərvərlik institutu təfəkkürün davranış vasitəsilə təzahürüdür.

Qonaqpərvərlik uzun bir inkişaf yolu keçmişdir və hansı dövrdə icra edildiyindən asılı olmayaraq insanların həyat normasına çevrilmişdir. Təbii ki, qonaqpərvərliyə xas adətlər hər dövrdə müvafiq surətdə icra olunmuşdur. Bu baxımdan konkret olaraq bir dövrün qanunauyğunluqlarını nəzərdən keçirmək mümkün deyil. Bunu nəzərə almaq ona görə vacibdir ki, obyektiv şəraitdən asılı olaraq meydana gələn və hər hansı bir dövrün tarixi mənzərəsinin yaratdığı nümunələri göz önündə daha dolğun canlandırmağa imkan yaranır (Bünyadova, 2005, s. 16).

## Tədqiqat

Azərbaycan xalqının etnogenezinin, adət-ənənələrinin, etnik mədəniyyətinin, ailə-məişət mərasimlərinin dərindən öyrənilməsi, ənənəvi qonaqpərvərlik institutunun və onunla bağlı maddi mədəniyyət nümunələrinin etnoqrafik cəhətdən tədqiq olunması xüsusi əhəmiyyət kəsb edir.

Məsələnin araşdırılmasında diqqət yetirilən əsas məqamlardan biri də tədqiqat üçün mənbə seçilən qonaqpərvərliklə bağlı icra edilən adətlər və bu zaman istifadə olunan maddi nümunələrdir. Əsas etibarilə məsələyə bir neçə aspektdən yanaşmağa çalışmışıq: tarixi, etnoloji, müasir. Daha çox etnoqrafik materiallara əsaslansa da, tarixi mənbələrdən, bədii motivlərdən qaynaqlanan ədəbiyyatlardan da istifadə

edilmişdir. Bir qayda olaraq, digər sahələrdə olduğu kimi, bu problemi də araşdırarkən müxtəlif elmi mənbələrə istinad edilmişdir.

Azərbaycanlıları səciyyələndirən ən vacib keyfiyyətlər sırasında müxtəlif amillər sadalana bilər. Bunlardan ən əsası isə vətənpərvərlik, mərdlik, sədaqət və qonaqpərvərlikdir. Qonaqpərvərlik anlayışı çox dəyərlidir, ümumilikdə Azərbaycanda qonağa böyük üstünlük verilir. Keçmiş məişətdə ev sahibi adətən qonağın təhlükəsizliyinə təminat verirdi. Belə ki, ev sahibi qonağın rahatlığı ilə bərabər, eyni zamanda sağ-salamat yola salınması, hər hansı şəxs tərəfindən ona xətər yetirilməməsi üçün cavabdeh olurdu. Təsadüf nəticəsində gələn səyyahın müəyyən bir evdə qonaq olduğu müddətdə, onun qayğısına qalmaq ev sahibinin üzərinə düşürdü. Qonağın malının mühafizəsinə təminat da buraya daxil idi. Qonaq evi tərk etdikdən, yəni yola salındıqdan sonrakı vəziyyət ev sahibinin səlahiyyətindən kənar sayılırdı. Amma qonağın evi tərk etdikdə müəyyən bir xahişi və ya arzusu olardısa, təbii ki, onun istəyini yerinə yetirmək üçün ev sahibi əlindən gələni əsirgəməz, lazım gələrsə, qonağı gedəcəyi yerə qədər aparmağı özünə borc bilərdi (Azərbaycan etnoqrafiyası, 2007, s. 129).

Dünya xalqlarında olduğu kimi Azərbaycanda da qonaqpərvərlik adəti ayrı-ayrı hissə və mərasimlərdən ibarətdir. Əsas etibarilə mərasimlər toy və yas olmaqla iki növdə qruplaşdırılır.

İlk olaraq Azərbaycan xalqının toy mərasiminin birinci mərhələsi hesab edilən "hə" qonaqlığı haqqında bəhs edərək bu adətin Naxçıvan ərazisində müşayiət edilən bəzi maraqlı cəhətlərini qeyd etmək olar. Ordubadda bu mərasim "şirniiçmək" adlanır. Oğlan evindən qız evinə kəllə qənd, şirniyyat, üzük və yaylıq gətirilirdi. Ordubadda qız evinə bir xonça və ya bir qab limon da aparılır. Ağsaqqalların xeyir-duasından sonra isə çay içilir (Qəniyeva, 2022, s. 6). Nişan zamanı qıza gətirilən geyimdən o, gündəlik vaxtlarda da istifadə edə bilərdi, xüsusilə  baş örtüyü və nişan üzüyü taxmaq məsləhət görülürdü. Oğlan evinin qız üçün gətirdiyi nişan xonçası və ya boğçasında olan əşyalar qəbul edilir, içərisinə isə oğlan üçün lazım olan geyim nümunələri qoyulur və onun evinə aparılırdı. Bu adət Naxçıvanda və s. bölgələrdə "tabaq qaytarmaq", Abşeronun bəzi yerlərində isə "vəzəud" adlanırdı. Yəni qıza gətirilən əşyaların müqabilində oğlan tərəfə onun qarşılığını vermək mənası daşıyırdı, geri qaytarmaq anlamı kəsb etmirdi. Müasir dövrdə isə qıza gətirilən nişan tortunun üzərində qız və oğlanın adları yazılır, tort ortadan ikiyə bölünür, qızın adı yazılan hissə oğlan evinə göndərilir, oğlanın adı yazılan hissə isə qız tərəfdə qalır (Bünyadov, 2012, s. 46).

Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da qonaq evə daxil olan zaman onu evin yuxarı hissəsinə dəvət edər, döşəməyə və yaxud masaya tirmə,

qələmkar, mahud parçalardan süfrələr salınardı. Hətta məşhur səyyah Evliya Çələbi yazırdı ki, “Naxçıvanın çit parçaları, qələmkar süfrələri bütün dünyada şöhrət qazanmışdır”.

İnformantların verdiyi məlumata görə Naxçıvanda hər bir şəxs evinə qonaq gələcəyindən xəbərdar olduqda, üç gün öncədən hazırlıq görülür. Evdə olan ən gözəl nemətlər qonağa təqdim edilir. Ordubad ərazisinin məşhur yeməkləri lobya şorbası (qovurma ilə hazırlanır). Ordubad küftəsi, Ordubad qayğanağı, (20-30 yumurtadan hazırlanır, 15-20 sm hündürlükdə olur, ayrıca şirə hazırlanır və süfrəyə təqdim edilən zaman üzərinə əlavə edilir, bal, 2 kq da yağ). Soğan dolması, ləpə şorbası (noxud ləpəsi ilə hazırlanır). Şirniyyatlardan Ordubad paxlavası, şəkərparə, cevizli kökə. Meyvələrdən Ordubad heyvası, limonu, əriyi hətta basdıq (sucuq), quru meyvələri qonaq üçün hazırlanan süfrələrin bəzəyinə çevrilir (10).

Etnoqrafik materiallar Ordubad bağbanları arasında xüsusi bir qonaqpərvərlik adətinin mövcudluğunu təsdiq edir. Bu adət “bostanpozma” adlanırdı. Məhsul yığımından sonra bağbanlar qonaq dəvət edər və onu yola salarkən yetişdirdikləri müxtəlif məhsullardan pay qoyardı (Quliyev, 1986, s. 39). Azərbaycanlıların qonaqpərvərlik adəti şüuraltı davranışın nəticəsidir. Bu məsələ ilə bağlı cəmiyyətin fikri də təxminən bir əsr öncə ilə eynilik təşkil edir. Qonağın qarşılanması, ona göstərilən xidmət dedikdə azərbaycanlıların təfəkküründə süfrə mədəniyyəti və onu təşkil etmək üçün müvafiq sosial məsələlər nəzərdə tutulur. Lakin qonaqpərvərlik sosial təsisatının bəzi aspektlərinin öyrənilməsində maddi mədəniyyət nümunələri tədqiq edilir ki, məhz bu da bilavasitə süfrə mədəniyyəti ilə bağlılıq təşkil edir.

Evliya Çələbinin “Səyahətnamə”sində Qərşi şəhərində onlara on bir növ plov verildiyini, eyni zamanda yemək hazırlamaq üçün 50 qoyun, minə qədər ağ çörək, 7-8 qatır yükü meyvə və şərbət göndərdiyini yazır. Göründüyü kimi, süfrələrdə yeməklərlə bərabər, meyvələr və şərbətlər də xüsusi yer tutmuşdur. Qarabağlar şəhərindən bəhs edən müəllif burada aşpazların son dərəcə təmiz və hamısının müsəlman olduğunu xüsusi vurğulayır (Çələbi, 1997, s. 6-7, 11).

Müasir dövrdə etnik markerlər, simvollar olan həm maddi, həm də mənəvi mədəniyyət nümunələri xalqın keçmişini, tarixi kimliyini bildirir. Müxtəlif maddi mədəniyyət nümunələri qonaqpərvərliyin təşkilində müstəsna əhəmiyyətə malik olmuşdur. Keçmiş məişətdə qonaqları qarşılamaq üçün istifadə olunan əşyalar müasir dövrdə bəzək nümunəsi kimi ev interyerini bəzəyir. Müxtəlif qablar xalqın keçmiş dövrdə mövcud olan dünyagörüşü və sənət zövqü haqqında geniş məlumat verir. Azərbaycan xalqının qonaqpərvərlik adətinin icrası zamanı istifadə olunan aftafa-ləyən artıq demək olar ki, bəzi evlərdə suvenir kimi istifadə edilir. Bu maddi mədəniyyət nümunəsi qonaqlara yeməkdən öncə və sonra əllərini yumaq üçün təqdim

edilirdi (Ganiyeva, 2021, s. 960).

Qonaq qarşılama mərasimində istifadə edilən məişət əşyalarını bir neçə növ üzrə qruplaşdırmaq olar: tikmə nümunələri; metal əşyalar; saxsı və çini məmulat; fərqli tərtibata, təyinata malik digər maddi nümunələr. Azərbaycan tarixinin müxtəlif dövrlərini əyani olaraq işıqlandıran, zəngin kolleksiyaya malik Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda qonaq qarşılama zamanı istifadə edilən eksponatlar sırasında nəinki Azərbaycanın müxtəlif bölgələrinə xas, həmçinin Qərbi Avropa, Rusiya və Şərq ölkələrinə aid maddi nümunələr qorunub saxlanılır. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda Naxçıvana məxsus müxtəlif maddi mədəniyyət nümunələri mühafizə olunmaqdadır. Bunlardan yuxarıda adı çəkilən, XVIII əsrdə Naxçıvanda hazırlanan (EF 8045) aftafanı qeyd etmək olar. Mətbəx və qonaq otağında saxlanılan bu tipli aftafalar əsas etibarilə "məclıs aftafası" adlanırdı. Belə aftafa ləyənlə birlikdə müasir əlüzyuyanı əvəz edirdi.

Aftafalar forma etibarilə darboğaz bardaqları, lüləyi və boğazlarının yuxarı hissəsinin orijinal olması ilə fərqlənir. Son orta əsr aftafaları içərisində dabanlı oturacağa və şarşəkilli gövdəyə malik nümunələrə tez-tez təsadüf olunur (Cəbiyev, 2003, s. 70).

Azərbaycan məişətində qonağın qarşılanması ilə yanaşı süfrə mədəniyyətinə xüsusi diqqət yetirilir. Bütün bölgələrdə mövcud olan qonaqpərvərlik adətinin spesifik, lokal xüsusiyyətləri Naxçıvan şəhərində də özünü göstərir. Süfrə mədəniyyətində ciddi əməl olunan şərtlərdən biri də yeməkdən əvvəl və sonra əllərin yuyulmasıdır. Bu ayinin icrası o dərəcədə inkişaf etmişdir ki, hər evdə bu məqsədlə (əl yumaq üçün) saxlanılan aftafa-ləyən məclisə gətirilirdi.



**Şəkil 1. MATM. EF 8045**

Su qabları arasında, xüsusilə aftafaların müxtəlif növləri (əl aftafası, məştəfa, əbriq, lüləyin, aftafa-ləyən və s.) hazırlanırdı.



**Şəkil 2. MATM. EF 8023**

Mətbəx qabları sırasında olan maddi nümunələrdən biri də mis kasalardır. Müxtəlif dövrlərdə qonaq qarşılama zamanı istifadə edilən bu məişət qabları demək olar ki, artıq Muzey kolleksiyalarında nümayiş etdirilir. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda mühafizə olunan belə kasalardan biri Naxçıvan ustaları tərəfindən hazırlanmışdır. Bu maddi nümunələrin muzeylərdə qorunub saxlanılması Naxçıvanda sənətkarlığın yüksək səviyyədə inkişafından xəbər verir.

Maye qablarına aid edilən mis kasalardan adətən qonaqlara ağartı məhsulları təqdim etmək üçün istifadə edilirdi. Adətən ölçülərinə görə adlandırılan bu qabların kiçik variantı piyalə, böyük variantı isə kasa və ya cam adlandırılırdı. Muzey ekspozisiyasında, həmçinin fondlarında nəfis tərtibatda, nəbati naxışlarla bəzədilmiş bu qabların hər iki növü mövcuddur.

Misdən yalnız məişət qabları deyil, həm də digər maddi nümunələr də hazırlanır. Mis məmulatdan hazırlanan müxtəlif məhsullar mövcuddur. Bunlardan çaynik, gülabdan, meyvə qabları, kasa, aftafa-ləyən və s.



**Şəkil 3. MATM. EF 9436**

Xalçaçılıq sənəti bədii sənətkarlığın məşhur forması və Azərbaycan xalqının milli kimliyinin daşıyıcısıdır. Gündəlik həyatda, müxtəlif mərasimlərdə əvəzedilməz məişət elementi və xalq yaradıcılığının ilhamverici komponenti olan xalçalar eyni zamanda xalqın tarixini, dünyagörüşünü, fəlsəfəsini özündə ehtiva edən mədəni irs nümunəsidir.

Azərbaycanda xalçaçılıq sənətinin meydana gəlmə tarixi siyasi-inzibati və mədəni cəhətdən vaxtilə İran, Kiçik Asiya ölkələri ilə eyni dövrə təsadüf edir. Ərəb müəlliflərinin verdiyi məlumata görə, Bərdədə toxunan xalçaların misli bərabəri yox idi. X əsrdə Naxçıvan, Xoy, Ərdəbil və Muğan yüksək keyfiyyətli xalça məmulatı ilə geniş şöhrət qazanmışdır (12).

Azərbaycan əhalisinin ev məişətində etnoqrafik bölgələr üzrə bir sıra fərqli xüsusiyyətlər yaranmışdır. Ölkənin əksər bölgələrində, xüsusilə, Mərkəzi Aran və Şərq bölgələrində şəhər, kənd əhalisinin məişət həyatının başlıca prosesləri: yemək, yatmaq, ev işləri görmək, asudə vaxt keçirmək, məşvərət, söz-söhbət və s. döşəmə üzərində baş verdiyindən onun səliqəli saxlanmasna, həsir, keçə (nəməd), palaz, xalça ilə döşənməsinə xüsusi diqqət yetirilər, divar boyunca, döşəkçə (nimdər), nüşti, mütəkkə, balınc (nazbalış) düzülərdi (Mustafayev, 2009, s. 36).

Naxçıvan xalçalarında rənglərlə yanaşı, simvolik elementlər də üstünlük təşkil edir. Məsələn, S şəklində olan qarmaqlar suyun rəmzini ifadə edir. Səlcuq türklərində bu çaxmaq mənasında istifadə edilmişdir. Gecə-gündüzü ifadə edən romb təsvirləri, 1 il, 12 ayı ifadə edən naxışlar və s. Naxçıvan xalçaları üzərində bir sıra zoomorf – dəvə, at, quş və s. təsvirlərə də tez-tez rast gəlmək mümkündür (Hacıyeva, 2017, s. 74). Xalçalar estetik baxımdan həm rəng, həm də materialların müxtəlifliyinə görə daha zəngin elementlərlə istehsal edilir. Zəngin xammal ehtiyatına malik olan Azərbaycanda müxtəlif növ toxuma məmulatından olan xalçalardan da istifadə olunmuşdur.

Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan ərazisində də qonaq üçün xüsusi ayrılmış otaq vardı və bu otaq ən dəyərli xalça, yorğan-döşək, digər ev əşyaları ilə təchiz edilərək yalnız qonaqların qəbulu üçün nəzərdə tutulmuşdur. Hər dövrdə Azərbaycan xalqı gələn qonağın ayağı altına gözəl naxışlarla toxunmuş xalçalar sərərdi. Bu da xalqın qonağa verdiyi dəyəri nümayiş etdirir.

## Nəticə

Naxçıvan tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Naxçıvanın müasir qonaqpərvərlik mədəniyyətində ənənəvi qonaqpərvərlik prinsipləri qorunub saxlanılmışdır. Lakin, keçmişdən miras qalan qonaqpərvərliklə yanaşı, müasir dövrün məişət və mədəniyyətindəki

qonaqpərvərlik adətlərində yeni elementlər də mövcuddur.

Bu gün minlərlə Azərbaycan vətəndaşı ölkə hüdudlarından kənardadır, qloballaşma və inteqrasiya proseslərində yaxından iştirak edirlər. Həmçinin minlərlə əcnəbilər milli, konfessional, mədəni və başqa adət-ənənələrini icra edərək Azərbaycanda yaşayırlar. İnteqrasiya isə ayrı-ayrı hissələrin vahid bir tamda birləşməsi anlamını ifadə edir. Bu, müxtəlif etnik mədəniyyətlərin qarşılıqlı əlaqəsi zəminində mədəniyyətlərin yaxınlaşmasına aiddir. Bu halda müxtəlif etnomədəni xüsusiyyətlərə malik icmalar bir dövlətin hüdudlarında birgə yaşayır. Qonaqpərvərlik multikultural inkişafın vacib göstəricisidir.

Məhz, ünsiyyət və qarşılıqlı təsir etnik qonaqpərvərliyin normativlərini müəyyən edir. Belə olduqda, mədəniyyət, tarixi yaddaş, milli xarakter, ana dili emosional dəyərləndirilmiş münasibətlər etnodifferensial əlamətlər kimi çıxış edir. Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası Azərbaycanın maddi mədəniyyət nümunələrinin tədqiq edilib öyrənilməsi üçün yüksək əhəmiyyət kəsb edir. Bu baxımdan tarixin müxtəlif dövrlərini özündə əks etdirən maddi mədəniyyət nümunələri hər zaman xüsusi maraq doğurur. Texnologiyanın inkişafı məişətdə istifadə olunan maddi nümunələrin sürətlə dəyişməsinə gətirib çıxarmışdır. Bunun nəticəsində meydana gəlməsi çətin və uzun müddət tələb edən məhsullara, daha doğrusu maddi mədəniyyət nümunələrinə müəyyən sənət mərkəzlərində, muzeylərdə rast gəlinir.

## Ədəbiyyat

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. – c. 3. Bakı: Şərq-Qərb. - 2007. - 384 s.
2. Bünyadova, Ş. Azərbaycan qonaqpərvərliyi / Ş.Bünyadova. Bakı: Elm. - 2005. - 152 s.
3. Bünyadova, Ş. Orta əsr Azərbaycan ailəsi / Ş.Bünyadova. Bakı: Elm. - 2012. - 384 s.
4. Cəbiyev, Q. Azərbaycan keramikası (XIV-XVII əsrlər) / Q.Cəbiyev. Bakı: 2003.- 236 s.
5. Çələbi, E. Səyahətnamə: Azərbaycan tarixinə aid seçmələr / türk dilindən işləyən və şərhlərin müəllifi S.Onullahi. Bakı: Azərnəşr. – 1997. - 92 s.
6. Ganiyeva, F. Azerbaycan'ın geleneksel kültüründe etnik bir işaret olarak misafirperverlik // - Trabzon: Motif Akademi Halkbilimi Dergisi. – 2021. – 14 (35). – s. 956-968.
7. Hacıyeva, S. Naxçıvanda sənətkarlıq (XII-XIX əsrlər) / S.Hacıyeva. Naxçıvan: Əcəmi. - 2017. - 184 s.
8. Qəniyeva, F. Çay dəsgahı. Kitab-albom (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında) / F. Qəniyeva. Bakı: Təhsil. – 2022. - 152 s.

9. Quliyev, H. Azərbaycanda ailə məişətinin bəzi məsələləri: keçmiş və müasir dövr / H.Quliyev; red. Q.A.Qeybullayev; AzSSR EA Tarix İnstitutu Arxeologiya və Etnoqrafiya Sektoru. Bakı: Elm. - 1986. - 96 s.
10. Məlumat – Məmmədəliyeva Səxavət. 1961- ci il. Ordubad sakini.
11. Mustafayev, A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat) / A. Mustafayev. Bakı: Bakı Universiteti nəşriyyatı. - 2009. - 420 s.
12. Худуд ал-алем, Рукопись Туманского / Акад. наук СССР; с введ. и указ. В.Бартольда. - Л: Изд-во Академии наук СССР. - 1930. - 45 с.

**Daxil oldu: 29.04.2025**
**Qəbul edildi: 29.06.2025**